# Rəhbər kimdir?

Çox zaman, biznes adamlarını görəndə və ya onlar haqqında fikir yürüdəndə belə bir fikir formalaşır ki, guya biznes adamı sərbəstdir və özü-özünün rəhbəridir. Həqiqətənmi bu belədir? Biz hesab edirik ki, biznesdə yalnız və yalnız bir rəhbər var – olur: CƏNAB MÜŞTƏRİ. Bilirsiz niyə?

Biznes adamı əslində heç bir şəkildə sərbəst deyil, hətta o sıravi işçi ilə müqayisədə daha asılıdır. Səbəb çox sadədir, biznes adamının məsuliyyəti çox böyükdür. Məhz onun verdiyi gərarlar əsasında şirkət inkişaf edə və ya müflis ola bilər. Məhz onun gərarları hər şeyi tənzimləyir. Hərəkət etdirir və dondurur.

Digər tərəfdən əgər sıravi işçinin 1 və ya bir neçə rəhbəri olursa, biznes adamının rəhbəri cəmi müştəri kütləsidir. Dolayı yolla biznesin şahıda müştəridir. Bunu başa düşməyən sahibkar müflis olmağa məhkumdur. Müflis olurda. Sınamışam… pul qazana bilməyən butün bizneslərdə, əslində butün müştərilər narazı olur. Əgər müştəri narazıdırsa, deməli sən pul qazana bilməzsən. Necə ki, əgər işçidən rəhbər narazıdırsa, onun əmək haqqısı arta bilməz və s.

Video blogda sözü gedən məsələ barədə fikirlərimizi Sizinlə paylaşmışıq. Maraqlı və faydalı olacağına çox inanıram!

ƏLAVƏ OXUMAQ ÜÇÜN:

- Azərbaycanda outsorsinq işləmir
- Biznes sahən nədir?